# Bəhruz Kəngərli yaradıcılığı K.Kərimovun tədqiqatlarında

Bəhruz (Şamil) Kəngərli 1892-ci il yanvarın 10-da Naxçıvanda, ziyalı ailəsində anadan olmuşdur. Uşaq yaşlarından rəssamlığa həvəs göstərmişdir. 1910-cu ildə, o vaxtlar Cənubi Qafqazda yeganə olan Tiflis rəssamlıq məktəbinə daxil olmaq üçün Tiflisə gəlmiş və Cəlil Məmmədquluzadənin köməkliyi ilə həmin məktəbə qəbul olunmuşdur. 1915-ci ildə təhsilini başa vurduqdan sonra doğma vətəninə qayıtmışdır. Rəssamın müstəqil sənət yolu elə həmin gündən başlasa da, təəssüf ki, çox da uzun olmamışdır. Vaxtsız ölüm Bəhruz Kəngərliyə öz yaradıcılıq ideyalarını tam şəkildə həyata keçirməyə, öz istedadını bütün gücü ilə nümayiş etdirməyə imkan verməmişdir.

R. Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində onun 500-ə yaxın rəsm əsəri toplanmışdır. Bu əsərlər müxtəlif janrlarda və müxtəlif materiallarla: karandaş, kömür, sulu və yağlı boyalarla işlənmişdir. Bütün bunlar B. Kəngərli irsinin yalnız bir hissəsini təşkil edir və rəssamın məhsuldar yaradıcılığa malik olduğunu göstərir.

338 rəsm əsəri onun yaradıcılığının birinci dövrünə aiddir. Bu əsərlər Azərbaycan Dövlət İncəsənət Muzeyində və Naxçıvanda Bəhruz Kəngərli muzeyində saxlanılır. Həmin əsərlər arasında "Molla Nəsrəddin" jurnalı üçün karikaturalar, antik heykəllərin obrazlı siluetləri, peyzajlar və naturadan çəkilmiş portretlər vardır. K. Kərimov bu işlərlə əlaqədar yazmışdır: "Əvvələn, öz məzmununa, bədii texnikasına və texniki icrasına görə bu işləri onun ilkin yaradıcılıq dövrünə, yəni rəssamlıq məktəbində təhsil almamışdan əvvəlki dövrə aid etmək olmaz. İkincisi, bu əsərlərdə biz peşəkar akademik təhsil almış, akademik rəsm ustasına çevrilmiş və realist təsvir vərdişlərinə yiyələnmiş bir rəssam görürük" (K. Kərimov. "Bəhruz Kəngərli", B. 1962, səh. 58).

1911-ci ildə rəssam artıq Tiflisdə oxuyurdu və buna görə də həmin dövrə aid portretlərdə onun dostları və tanışları təsvir olunmuşdur. K. Kərimov qeyd edir ki, B. Kəngərli rəssamlıq məktəbinə, əvvəllər göstərildiyi kimi 1912-ci ildə deyil, bundan xeyli qabaq daxil olmuşdur. Bunu da qeyd etmək lazımdır ki, rəssamın 1911-ci ilə qədərki işləri günümüzə gəlib çatmamışdır. B. Kəngərli özünün ilk rəsm sərgisini 1914-ci ildə təşkil etmişdir. Bu sərgi Naxçıvanda açılmışdır. Bu barədə o dövrün mətbuatında da məlumat verilir. Həmin məlumatda deyilir ki, 1914-cü ildə B. Kəngərli hələ Tiflis rəssamlıq məktəbinin tələbəsi imiş. K. Kərimov bu faktla əlaqədar yazır: "Beləliklə aydın olur ki, B. Kəngərli Tiflis rəssamlıq məktəbinə 1912-ci ildə deyil, 1910-cu ildə daxil olmuşdur və beş ildən sonra onu bitirərək 1915-ci ildə Naxçıvana qayıtmışdır" (K. Kərimov. "Bəhruz Kəngərli", B. 1962).

Yuxarıda adı çəkilən sərgidə "Ararat dağları", "Gecə peyzajı", "Qürub çağı", avtoportret və s. kimi əsərlər nümayiş etdirilmişdir. Bu rəsm işləri tamaşaçıların xoşuna gəlmiş, tənqidçilər və mətbuat tərəfindən yüksək qiymətləndirilmişdir. "İqbal" qəzeti 16 iyun 1914-cü il tarixli sayında qeyd edirdi ki, "rəssamın çəkdiyi şəkillər müəllifin öz real həyatından və yaxud şəxsi müşahidələrindən götürülmüşdür" (yenə orada).

1915-ci ildən başlayaraq B. Kəngərlinin işləri arasında gipsdən hazırlanmış heykəl təsvirlərinə, habelə "akademik" ənənələrə uyğun çəkilən və bütövlükdə doğma diyarın gözəlliyini tərənnüm edən rəsm əsərlərinə rast gəlinir. R. Mustafayev adına İncəsənət Muzeyində rəssamın 1914-1915-ci illərdə çəkdiyi rəsmlərdən ibarət albom saxlanılır. Bu albomdakı əsərlər karandaş və yaxud kömürlə işlənmişdir. K. Kərimov öz tədqiqatında yazır: "Əsərlərin sayca çoxluğu onların keyfiyyətinə xələl gətirməmişdir. Bu da rəssamın böyük ustalığa və istedada malik olduğunu göstərir" (Yenə orada).

Bəhruz Kəngərlinin 1913-1915-ci illəri əhatə edən digər bir albomunda karandaş və kömürlə işlənmiş "akademik" rəsmlər toplanmışdır. Onların arasında Mikalancelo və başqalarının "Apollonun başı", "Qədim yunan heykəli", "Laokoon", "Zəncirlənmiş kölə" kimi rəsm işləri var. K. Kərimov yazır: "Bu işləri, rəssamın peşəkarlığının daim artmaqda olduğunu və onun tezliklə realist rəngkarlığa üz tutacağını göstərir. Bu işlər öz bədii ustalığına görə hələ o qədər də mükəmməl deyillər, amma zahiri oxşarlıq çox ifadəlidir və bu da onun ustalığına dəlalət edir" (Yenə orada).

Rəssamın yaradıcılığında müstəqil dövr 1917-1920-ci illəri əhatə edir. Bu dövr bütün Azərbaycanın, o cümlədən Naxçıvanın tarixində ən mürəkkəb dövrlərdən biri olmşdur. Bu dövrdə baş verən hadisələr barədə məqalənin əvvəlində söhbət açılmışdır. Rəssamın yaradıcılığının bu dövrü əsasən peyzaj və



*K. Kərimovun ilk elmi tədqiqat işlərindən biri Bəhruz Kəngərlinin (1892-1992) yaradıcılığına həsr olunmuşdur. Bəhruz Kəngərli gənc yaşlarında, yaradıcılığının çiçəkləndiyi bir vaxtda həyatdan köçmüşdür. Buna baxmayaraq, onun yaradıcılıq irsi Azərbaycan rəngkarlığı tarixində dərin iz buraxmışdır. Bəhruz Kəngərli təsviri sənətimizi yeni forma və janrlarla, yeni rəsm texnikası ilə zənginləşdirmişdir. K. Kərimov "Bəhruz Kəngərli" adlı kitab yazmışdır. Bu kitab 1962-ci ildə Azərbaycan dilində çap olunmuşdur. Müəllif həmin kitabda rəssamın yaradıcılığını dərindən tədqiq edir və Azərbaycan realist rəngkarlığının inkişafında onun rolunu layiqincə qiymətləndirməyə çalışır. K. Kərimova qədər bu sənətkarın yaradıcılıq irsinə bir çox Azərbaycan sənətşünasları, o cümlədən M. Nəcəfov, N.Həbibov, N. Miklaşevskaya müraciət etmişlər. Onlar rəssamın yaradıcılığını yüksək qiymətləndirsələr də bu yaradıcılığın bütün aspektlərini fundamental şəkildə tədqiq etməmişlər. K. Kərimov isə öz kitabında məhz bu cəhətə xüsusi diqqət yetirmişdir. Alimin həmin tədqiqat əsərinin təhlilinə başlamazdan əvvəl biz rəssamın bioqrafiyası ilə tanış olacağıq.*

portret işləri ilə xarakterikdir. Bunlardan əlavə, Bəhruz Kəngərli həmin dövrdə "Molla Nəsrəddin" jurnalı üçün satirik rəsmlər çəkmişdir. O, həmçinin süjetli-tematik rəsmlər üzərində işləmişdir. Məsələn: "Qaçqın kişi", "Qaçqın qadın". Bu əsərlərdə o, öz xalqının dərdinə bütün qəlbi və ürəyi ilə yanan vətəndaş kimi çıxış etmişdir. Bu insanlar həmişə Azərbaycana məxsus olmuş, əsrlər boyu onun tərkib hissəsini təşkil edən bir ərazidən, Zəngəzurdan qovulmuşlar. Erməni təcavüzkarları terror və qətllər yolu ilə bu ərazini zəbt etmişlər. Bütün yerli əhali bu ərazidən didərgin salınmış, bütün mədəniyyət abidələri ya tamamilə məhv edilmiş, ya da "Böyük Ermənistan kimi böyük və qüdrətli" erməni xalqının ayağına yazılmışdır. Bu insanlar təhqirə məruz qalmış, qorxulu və əndişəli anlar yaşamışlar. Onlar "özgə torpaqlarını qəsb etmək yolu ilə dənizdən dənizə qədər böyük bir dövlət yaratmağa hazırlaşan erməni siyasətinin əsl məğzini" anlamamışlar. Çox təəssüflər olsun ki, Azərbaycan torpaqlarının erməni qəsbkarları tərəfindən qan və terror yolu ilə zəbt olunması prosesi XX əsrin 90-cı illərində də davam etmişdir və biz özümüz də bunun məcburən şahidləri olmuşuq. Beləliklə, qeyd etmək lazımdır ki, bu rəsm işləri öz aktuallığını bu gün də itirməmişdir və onlar, görünür hər zaman real olaraq qalacaqdır. Çünki, "Böyük Ermənistan" ideyası bu xalq üçün bir növ fobiya və yaxud sağalmaz xəstəliyə çevrilmişdir.

Rəssamın peyzaj işləri də alimin diqqətini cəlb etmişdir. K. Kərimov yazır: "B. Kəngərliyə qədər Azərbaycan rəngkarlığında peyzaj müstəqil janr kimi mövcud olmamışdır. O, çox vaxt köməkçi rol oynamış, rəsmin fonu şəklində çıxış etmişdir" (K. Kərimov. "Bəhruz Kəngərli", B. 1962, səh. 63). "Naxçıvan abidələri" albomu da məhz bu dövrdə işlənmiş və albomda bu diyarın memarlıq abidələri təsvir edilmişdir. Onlar zəngin rəng koloriti ilə seçilirlər.

K. Kərimov rəssamın portret işlərini də yüksək qiymətləndirmişdir: "Formaca müasir, xarakterinə görə realist portretlər ilk dəfə B. Kəngərli tərəfindən yaradılmışdır" (K. Kərimov. "Azərbaycan incəsənəti", B. 1992, səh. 232). Onlar karandaş, kömür, sulu və yağlı boya ilə işlənmişdir. Alim yazır: "Zamanbəyovun, Əsəd ağanın və başqalarının həm ilkin, həm də son dövrlərdəki portretlərində rəssam bu rəngkarlıq janrında əldə etdiyi nailiyyətləri əks etdirmişdir" (yenə orada). "Qaçqınlar" seriyası da alim tərəfindən öz layiqli qiymətini almışdır: "Humanist rəssam Bəhruz Kəngərli, ətrafında baş verən qanunsuzluqlara və mövcud ictimai-siyasi quruluşa qarşı çıxırdı" (yenə orada). Bu əsərlər bizi bu insanların öz doğma yurd-yuvalarını nə üçün tərk etməyə məcbur qaldıqlarını unutmamağa çağırır…

Rəssamın 30-a yaxın əsəri uşaqlara həsr edilmişdir. Onlar kompozisiya strukturuna görə müxtəlif olsalar da realistlik baxımından eynilik təşkil edirlər. Bu faktı K. Kərimov da qeyd etmişdir: "… rəssam uşaqların yaşını, sadəlövhlüyünü, həyat eşqi ilə dolu olduqlarını və onların gözlərinin ifadəliliyini dəqiq vermişdir" (yenə orada).

Bəhruz Kəngərli özünü teatr rəssamı kimi də göstərmişdir. 1915-ci ildən başlayaraq o, Naxçıvan teatrının tamaşaları üçün dekorasiyalar tərtib etmişdir. Pərdələrin və kostyumların eskizlərini hazırlamışdır. O, həqiqətən də son dərəcə, özü də bir çox cəhətdən istedadlı insan olmuşdur. Rəssam 1918-ci ildə Naxçıvan teatrının səhnəsində tamaşaya qoyulan "Ölülər", "Hacı Qara" kimi klassik əsərlərə tərtibat vermişdir.

Yeni ictimai-siyasi dəyişikliklər bu istedadlı rəssamın yaradıcılığının inkişafına yeni bir təkan verə bilərdi, lakin vaxtsız ölüm ona öz ideyalarını həyata keçirməyə imkan verməmişdir. Çox cavan yaşlarında - 1922-ci il fevralın 7-də vəfat etsə də, Bəhruz Kəngərli Azərbaycan təsviri sənəti tarixində realist rəngkarlıq məktəbinin banisi olmuşdur. O, Azərbaycan rəngkarlığını yeni məzmun, yeni forma və yeni janrlarla zənginləşdirmişdir.

**Günay RƏHİMOVA**